# ELEKTRON HÖKUMƏT İNFORMASİYA SİSTEMİ VASİTƏSİLƏ ƏLDƏ EDİLMƏSİ MÜMKÜN OLAN, QANUNLA ƏRİZƏYƏ ƏLAVƏ EDİLMƏLİ SƏNƏDLƏR VƏ YA MƏLUMATLAR

- Fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər üzrə məlumatları;
- Fiziki şəxslərin məhkumluğu barədə məlumatları;
- Fərdi sahibkarların vergi orqanları tərəfindən qəbul olunmuş sonuncu gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannamələri, eləcə də fərdi sahibkar olmayan digər fiziki şəxslərin iş yerləri və aylıq gəlirləri (vergiyə və digər icbari ödənişlərə cəlb olunmamış) barədə məlumatları;
- Fiziki şəxslərin ailə üzvləri barədə məlumatları;
- Fiziki şəxslərin hərbi bileti üzrə məlumatları;
- Vətəndaşlıq vəziyyəti aktları barədə məlumatları;
- Qurumların ünvanları barədə məlumatları;
- Hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla);
- Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin VÖEN-ini;
- Hüquqi və fiziki şəxslər tərəfindən alınmış lisenziyalar və icazələr barədə məlumatları;
- Qurumların və fiziki şəxslərin notariuslar vasitəsilə verdikləri etibarnamələr üzrə məlumatları;
- Maliyyə sanksiyasının tətbiqi haqqında qərarlar, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlar (o cümlədən elektron qərarlar), habelə məhkəmə qərarları, həmin qərarların icra müddəti və müddətin bitməsi barədə məlumatları;
- Xeyrinə ödəniş aparılacaq fiziki şəxslərin və qurumların bank və xəzinədarlıq hesabları;